

Fəxrəddin ZİYA

# *İbadət, səxavət*

*...Ya Rəsulum!*
*Qızıl-gümüş yığıb onları*
*Allah yolunda xərcləməyənləri*
*Axirət günündə şiddətli bir əzabla (qar-*
*şılanacaqları barədə xəbərlə) məyus et!*
*...Yığdıqları, Qiyamət günü cəhənnəm*
*atəşində qızdırılıb alın, böyür*
*və kürəklərinə dağ kimi basılacaqdır!..*

***"Tövbə" (9) 35-36-cı ayələr***

**Bizə nazil olan tək qorxu deyil,**
**burda xeyirxahlıq, mərhəmət də var.**
**Bizə nazil olan tək sayqı deyil,**
**burda hikmət dolu fəzilət də var.**

**Açdım yenə mən bu fövqəl kitabı,**
**ayələr gözümdən qəlbimə hopdu.**
**Bu da Xudavənddən gələn bir təlim**
**bu da üzü Haqqa gedən bir yoldu.**

**İbadət, səxavət - ikisi də hünər,**
**biri o birindən heç geri qalmaz.**
**Kim ki, səxavətdə sınaqdan keçər,**
**o şəxsin qapısı duasız olmaz!**

**Çox uca məqamdır əliaçıqlıq,**
**bu bir xoş istəkdir, təmiz niyyətdir.**
**Mömin ibadəti mənəvi paklıq,**
**müdrik səxavəti xalqa xidmətdir.**

**Kaş ki, anlayaydı bunu zənginlər,**
**kaş bunu varlılar duya biləydi.**
**Hər bitkin imanlı var-dövlətini**
**el-oba yolunda qoya biləydi.**

**Allahım, Sənin ki, qüdrətin nə çox,**
**nizam ver, düz yolla getsin insanlar.**
**Qoy bunu Cəhənnəm qorxusuyla yox,**
**Cənnət sevgisiylə etsin insanlar.**

**Səxavət, vaxt olur ibadətdən də**
**üstündür, söyləyir aqil kişilər.**
**Əlbəttə, örnəkdir, məktəbdir bizə**
**fikri, düşüncəsi kamil kişilər.**

**Siz ey iman deyib Həccə gedənlər,**
**Həcc ilə axirət qazanılırmı?**
**Suçundan xoflanıb Tövbə edənlər,**
**Tövbəylə günahlar azaldılırmı?**

**Yox-yox, yaxşılıq var Tövbəyə örnək,**
**nə çoxdur insanlar imam misallı.**
**Fironlar apara bilmirsə, demək**
**Dünyada qalacaq dünyanın malı.**

**Ya Rəhhim, Sən özün onları qoru,**
**xeyirxah insanlar gözə gəlməsin.**
**Ancaq bu əməldə bir şərt də vardır,**
**Sağ əl verdiyini sol əl bilməsin!**

**Möminlərin əmiri Həzrət Əlidən**
**qalma kəlamdır!**

*14.07.2022*

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 30 iyul.- S. 15.